# Humanitar və ictimai fənlərin tədrisinin aktuallığı

Ölkəmizdə bazar iqtisadiyyatı və demokratik cəmiyyət quruculuğu şəraitində demokratik dünyagörüşünə, zəngin mənəviyyata və saf əxlaqa malik insanın formalaşmasında ictimai fənlər, o cümlədən fəlsəfə, politologiya və sosiologiya fənləri böyük rol oynayır. Azərbaycanın gələcəyi olan gənc tələbələrə xüsusi diqqətin yetirilməsi, onların intellektual potensialının gücləndirilməsi, müasir dünyanın tələblərinə cavab verən kadrlar kimi yetişdirilməsi tədris prosesinin məzmun və keyfiyyət baxımından yenidən formalaşdırılmasını tələb edir. Bu baxımdan, fəlsəfənin bir tədris fənni olaraq xüsusi əhəmiyyətə malik olduğunu vurğulamaq lazımdır. Fəlsəfə təfəkkürün inkişafında xüsusi əhəmiyyət kəsb edir və müxtəlif sahələrdə ixtisaslaşan tələbələrdə yaradıcı düşüncə tərzinin, daha geniş təhlil qabiliyyətinin, hadisələrə müxtəlif aspektlərdən nəzəri yanaşma bacarığının formalaşması üçün zəruri baza rolunu oynayır. Digər tərəfdən, müasir iqtisadi inkişafın dəstəklədiyi bazara uyğun kadr hazırlığı təhsildə dar ixtisaslaşmanı önə çıxardığından, tələbələrdə ümumi dünyagörüşünün də dar çərçivəsini formalaşdırmaqdadır. Bu nöqteyi-nəzərdən, fəlsəfə fənni tələbələrin dünyagörüşünün daha geniş bir şəkildə inkişafına zəmin yaradır.

Eyni zamanda, fəlsəfə fənninin tədrisinin də yeni tələblərə uyğun bir şəkildə təşkil edilməsinə zərurət yaranır. Sovet dövrü əzbərçiliyindən fərqli olaraq interaktiv ünsiyyətə əsaslanan, gənclərdə müstəqil düşüncə tərzinin formalaşmasına kömək edən tədris metodologiyasından istifadə, gənc müəllimlərin dərslərə geniş şəkildə cəlb olunması fəlsəfənin tədrisi zamanı yeni keyfiyyətin əldə olunmasında əsas meyar kimi çıxış edə bilər. Bununla yanaşı, dünyada mövcud olan yeni fəlsəfi baxışlar, nəzəriyyələr fənnin tədrisi zamanı diqqətdən yayınmamalıdır. Milli fəlsəfi irsin öyrənilməsinin əhəmiyyətini nəzərə alaraq, tədris proqramında milli fəlsəfə məktəbinə və Azərbaycan fəlsəfi fikir tarixinə xüsusi yer ayrılması vacibdir. Gənclərin elmə azalmaqda olan marağını nəzərə alaraq fəlsəfə, sosiologiya və politologiya kimi elm sahələrində ali təhsil müəssisəsi səviyyəsində, o cümlədən ümumrespublika müsabiqələrinin keçirilməsi tələbələrdə elmi təşəbbüsü stimullaşdıra bilər. Bütün bunlar nəticə etibarı ilə milli-mənəvi köklərə bağlı kreativ vətəndaşın formalaşmasına zəmin yaradır.

Müasir dövrdə siyasət məsələlərinə, siyasi münasibətlərə, siyasi təsisatların fəaliyyətinə, onların demək olar ki, ictimai həyatın bütün sahələrinə - iqtisadiyyata, sosial və mənəvi sahələrə təsirinə maraq daha da artmaqdadır. Bu isə təbiidir, çünki hazırda cəmiyyət üzvlərinin geniş təbəqələri siyasi fəaliyyətə daha fəal cəlb olur, yeni sosial-siyasi strukturlar meydana gəlir.

Politologiyanın rolunun getdikcə artması, ictimai fənn olmaq etibarilə onun tədrisinin zəruriliyi və aktuallığı cəmiyyətin siyasiləşməsi ilə sıx surətdə əlaqədardır.

Politologiyanın predmetinə cəmiyyətin siyasi sisteminin prinsipləri, onun əsas ünsürlərinin - dövlət, siyasi partiyalar, ictimai təşkilatların nisbəti və qarşılıqlı əlaqəsi, dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi, ictimai-siyasi münasibətlərin tənzimlənməsi, xarici siyasət məsələləri, beynəlxalq planda müxtəlif siyasi qüvvələrin fəaliyyət mexanizmi, habelə beynəlxalq münasibətlərin formalaşdırılması problemləri aid edilir.

İctimai həyatın siyasi sahəsini politologiya ilə yanaşı fəlsəfə, sosiologiya, hüquq, tarix və başqa elmlər də öyrənir, lakin bu elmlərdən hər birinin spesifik idrak predmeti vardır. Politologiyanın predmetini isə belə ifadə etmək olar: Politologiya siyasi hakimiyyətin yaranması, fəaliyyət göstərməsi və inkişafının qanunauyğunluqları, ondan idarəetmədə əməli surətdə istifadə etməyin forma və metodları haqqında elmdir. Politologiya eyni zamanda ümumbəşəri siyasi amilləri də tədqiq edir.

Hazırda politologiya iki aspektdə - müstəqil elmi bilik sahəsi və tədris fənni kimi öyrənilir. Elm kimi politologiya siyasi fikir tarixini, siyasi sistemləri, siyasi prosesləri, siyasi şüur və siyasi mədəniyyəti, həmçinin qlobal dünya siyasi problemləri və inkişaf qanunauyğunluqlarını tədqiq edir.

Elm kimi politologiya fundamental və tətbiqi tədqiqatlar aparır. Tətbiqi tədqiqatlar cəmiyyətin yeniləşməsində hakimiyyət təsisatlarına kömək etməyi və eyni zamanda politologiya fənni müəllimlərinə pedaqogikanın ən mühüm prinsipi olan təlimin həyatla əlaqəsini həyata keçirməkdə istiqamət verməyi nəzərdə tutur.

Tədris fənni olmaq etibarilə isə politologiya tələbələrdə cəmiyyətin siyasi sahəsi, onun inkişaf qanunauyğunluqları haqqında təsəvvür yaratmalı və eyni zamanda onlara müasir siyasi təsisatlar, onların quruluşu və fəaliyyəti, demokratik cəmiyyətdə vətəndaşların hüquq, azadlıq və vəzifələri, şəxsiyyətin siyasi-hüquqi vəziyyəti, siyasi həyatda onun iştirakının üsulları və formaları, siyasi proseslərin tipləri, formaları, dinamikası, onların subyektləri, siyasi mədəniyyətin məzmunu və formalaşması yolları, müasir dövrün müxtəlif ideya-siyasi konsepsiyaları, yeni siyasi təfəkkürün mahiyyəti və prinsipləri, müasir dünya inkişafının hərəkətverici qüvvələri haqqında bilik verməlidir. Təbiidir ki, tədris prosesində konkret hadisələr, ziddiyyətlər və problemlər də nəzərdən keçirilməlidir. Politologiya fənnini öyrənmək nəticəsində tələbə dərin siyasi bilik əldə etməli, siyasi cəhətdən səriştəli olmalı və siyasi prosesləri təhlil etməyi bacarmalıdır. Bu, tələbələrdə siyasi mədəniyyətin formalaşmasına, sosial-siyasi problemləri təhlil edərkən və onlara qiymət verərkən müasir siyasi təfəkkür prinsiplərini tətbiq etmək bacarığına malik olmağa, onlarda fəal vətəndaşlıq mövqeyinin, siyasi proseslərə səmərəli təsir göstərmək qabiliyyətinin yaranmasına, xalq hakimiyyətinin həyata keçirilməsində onların iştirakına kömək edir.

Politologiya fənninin öyrənilməsi cəmiyyət üzvlərinin siyasi intellektual səviyyəsi və siyasi davranış mədəniyyətinin yüksəldilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Siyasət haqqında təlim siyasi həyatda hər cür təsadüfilikdən, gözlənilməz hallardan uzaqlaşmağın, cəmiyyətin müvəffəqiyyətlə idarə edilməsinin, qarşıya qoyulan siyasi məqsədlərə nail olmağın çox vacib və mühüm vasitəsidir.

"Sosiologiya" anlayışı latın dilində "societas" (cəmiyyət) və yunanca "loqos"(söz, təlim) sözlərinin birləşməsindən meydana gələrək ən ümumi mənada cəmiyyət haqqında elm deməkdir.

Sosiologiya cəmiyyətin təşəkkülü, mövcudluğu və inkişafı, sosial birliklər və sosial münasibətlər haqqında elmdir. Göründüyü kimi, digər elm sahələrində olduğu kimi, sosiologiyanın da predmetini cəmiyyət, onu təşkil edən sosial orqanizmlər təşkil edir. Lakin həmin elmlərdən fərqli olaraq sosiologiya cəmiyyəti təşkil edən sosial birliklər arasındakı münasibətlərin hazırkı vəziyyətini və səviyyəsini öyrənir.

Son bir neçə il ərzində politologiya və sosiologiya fənlərinin tədrisi prosesində bir sıra yeniliklər edilmişdir. Hər iki fənnin tədrisinə ayrılan saatların miqdarı artdığı üçün həm politologiya və həm də sosiologiya fənni üzrə tədris proqramına bir neçə yeni mövzular daxil edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev 2016-cı ili Azərbaycanda "Mültikulturalizm ili" elan etmişdir. Bu siyasətin uğurla həyata keçirilməsinin əsas şərtlərindən biri multikulturalizm haqqında elmi biliklərin ölkənin ali məktəblərində tədris olunmasıdır.

"Multikulturalizmə giriş" bir fənn kimi indiyədək Azərbaycanın heç bir ali məktəbində tədris olunmamışdır. Multikulturalizmin dövlət siyasəti olmasını nəzərə alaraq bu fənnin tədrisi bakalavr pilləsinin bütün ixtisasları üçün nəzərdə tutulur. Fənnin tədrisinə 45 saat ayrılmışdır (onlardan 30 saat mühazirə, 15 saat məşğələ).

"Multikulturalizmə giriş" fənlərarası bir kursdur. Bu fənn fəlsəfə, politologiya, tarix, sosiologiya, kulturologiya və digər humanitar fənlərin bir çox nəzəri müddəalarından istifadə edir.

Əsas məqsədi kursun bakalavr pilləsində təhsil alan tələbələrə multikulturalizmi bir sosial hadisə, ideologiya, siyasət, həyat tərzi kimi təqdim etmək, müasir dövrdə onun əhəmiyyətini göstərmək, dünya dövlətlərinin, o cümlədən Azərbaycanın multikulturalizm sahəsində tarixi təcrübəsini tədqiq etmək və tələbələr arasında tolerantlıq ənənələrini möhkəmləndirmək və inkişaf etdirməkdir.

Müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı əlaqələrini dərinləşdirən qloballaşma prosesi istər ölkədaxili, istərsə də beynəlxalq müstəvidə multikulturalizm siyasətinin əhəmiyyətini artırır. Belə ki, etnik-mədəni müxtəlifliyin genişləndiyi şəraitdə etnik, dini və mədəni tolerantlığın artmasına zəruri zəmin yaradan multikulturalizm siyasətinin alternativi olmaması açıq şəkildə özünü büruzə verir. Lakin multikulturalizm siyasətinin zəruriliyinin artdığı bir dövrdə bəzi dövlətlərdə bu və ya digər səbəblərdən həmin siyasətdən uzaqlaşmaq meylləri yaranmaqdadır. Bu isə öz növbəsində o dövlətlərdə anti-semitizm, irqçilik, ksenofobiya, islamofobiya və nifrətə əsaslanan digər cinayətlərin törədilməsinə səbəb olur.

Multikulturalizmin bir sıra dünya dövlətlərində iflasa uğradığı bir şəraitdə Azərbaycan Respublikası multikulturalizmi özünün dövlət siyasəti bəyan etmişdir. Bu siyasət uğurla həyata keçirilməkdədir və bu sahədə ölkənin əldə etdiyi nailiyyətlər beynəlxalq səviyyələrdə də etiraf olunur. Bundan başqa, bir sıra dövlətlər Azərbaycanın multikulturalizm təcrübəsini öyrənib tətbiq etmək fikrindədir.

Ölkənin ali məktəblərində humanitar və ictimai fənlərin tədrisinin daha da təkmilləşdirilməsi üçün bir sıra tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur.

Fikrimizcə, həmin fənlər üzrə elmi və metodiki tədris vəsaitlərinin hazırlanması və nəşr edilməsinə diqqət artırılmalı, həmin fənlərin tədrisində respublikamızda demokratik cəmiyyət quruculuğu prosesində həyata keçirilən sosial-siyasi tədbirlərin təhlilinə xüsusi diqqət yetirilməli, aktual elmi, nəzəri problemlərə dair vaxtaşırı seminarlar keçirilməlidir.

**Zahid MƏMMƏDOV,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin politologiya kafedrasının müdiri, professor*